***Vətən müharibəsində böyük qələbənin qazanılmasının şəriksiz memarı müzəffər Ali Baş Komandan və qəhrəman Azərbaycan Ordusudur. İgid əsgər və zabitlərimiz 44 gün ərzində daim irəli gedərək xalqımızın arzu və istəklərini reallaşdırdılar. 30 ilə yaxın işğal altında qalan tarixi və əzəli torpaqlarımız erməni işğalından qurtuldu, ərazi bütövlüyümüz bərpa olundu. Bu haqda nə qədər yazılsa da, deyilsə də yenə azdır. Müharibənin ilk günlərindən xarici ölkələrin Azərbaycana münasibətdə tutduğu yer və sərgilədikləri mövqe diqqəti çox cəlb edir. Xaricdəki erməni lobbilərinin təsiri altında bəzi dövlətlər ermənilərin yanında yer aldılar. Lakin haqqı, ədaləti müdafiə edənlərin sayı daha çox oldu. Bunun nəticəsi idi ki, Azərbaycan kəskin beynəlxalq təzyiqlərə məruz qalmadı. Halbuki, işğal faktını təsdiq edən və Ermənistanın silahlı birləşmələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnamə qəbul edən BMT Təhlükəsizlik Şurası fövqəladə iclas çağıraraq ölkəmizin haqq savaşını dayandırmağa cəhd etdi. Ancaq Azərbaycana dost və müttəfiq olan ölkələrin qabaqlayıcı tədbirləri arzuolunmaz halların qarşısını almağa imkan verdi.***

# Vətən müharibəsində Azərbaycana dəstək verən ölkələrlə elmi əməkdaşlıq diqqət mərkəzində olmalıdır

## *AMEA Aşqarlar Kimyası İnstitutu fundamental və tətbiqi elmi tədqiqatlarda qardaş və dost ölkələrlə əməkdaşlığa önəm verir*

Vətən müharibəsi dövründə Azərbaycana ən böyük siyasi və mənəvi dəstək verən ölkələr arasında, ilk növbədə, Türkiyə, Pakistan və İsrailin adı xüsusi qeyd edilməlidir. Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" tezisinin təkcə sözdən ibarət olmadığını əməlləri ilə təsdiq edən qardaş Türkiyə II Qarabağ müharibəsinin ilk günündən sonuna qədər "dost və qardaş Azərbaycanın yanındayıq, yanında olmağa davam edəcəyik" dedi. Sirr deyil ki, qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın obyektiv və sərt bəyanatları, atdığı qətiyyətli addımlar, onun düşünülmüş diplomatik gedişləri, xüsusən "... əgər bu münaqişədə qırmızı xəttimiz keçilərsə, incimərsinlər, babamızın oğlu da olsa, gözümüz görməz" ifadələri Azərbaycanın işğalda olan ərazilərini qaytarmaq uğrunda aparılan müharibənin uğurlarına böyük təsir göstərdi.

Dost Pakistanın Baş naziri İmran xanın "bu müharibədə haqq-ədalət tərəfi olan Azərbaycanın yanındayıq, lazım gələrsə qardaşlarımıza hər cür dəstək verməyə hazırıq", deməsi gücümüzə güc qatdı.

Xoş sözləri ölkəmizə siyasi-mənəvi dəstək nümayiş etdirən İsrail, Ukrayna, Belarus və sair ölkələr, onların rəhbərləri və xalqları haqqında da söyləmək olar. Bəli, birmənalı qeyd etmək olar ki, dost, qardaş ölkələrin, müttəfiqlərimizin mənəvi dəstəyi, digərlərinin Azərbaycan və Ermənistana münasibətdə, ən azı, tərəfsizlikləri qoruyub saxlamaları Qarabağ probleminin birdəfəlik həll edilməsində və ərazi bütövlüyümüzün bərpa olunmasında önəmli rol oynadı.

Vətən müharibəsindən sonra yaranmış reallıq bizə dost olan və olmayan ölkələri ayırd etməyə yardımçı oldu. Ona görə də bu yeni reallıq həm də haqq savaşında respublikamıza yaxından dəstək verən ölkələrlə siyasi, iqtisai, elmi, mədəni sahələrdə vahid əməkdaşlıq platformaların yaradılması məsələsini nəinki gündəmə gətirdi, hətta bunun tezliklə reallaşdırılmasını obyektiv zərurətə çevirmiş oldu. Elmi nöqteyi-nəzərdən əməkdaşlıq imkanlarını nəzərə alsaq görərik ki, qardaş, dost, müttəfiq ölkələrlə belə bir elmi platformanın yaradılması real görünür. Çünki mərkəzləşmiş elmi siyasət həyata keçirən akademik elmin mərkəzi olan Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və onun elmi-tədqiqat müəssisələri və Yüksək Texnologiyalar Parkı kimi təşkilatları onsuz da ayrı-ayrılıqda yuxarıda qeyd etdiyimiz ölkələrin elmi mərkəzləri ilə bu və ya digər formada əməkdaşlıq edirlər. Məsələn, AMEA-nın akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun (AKİ) fundamental və tətbiqi sahədə həyata keçirdiyi müştərək beynəlxalq tədqiqatlarda Türkiyə, Pakistan, Ukrayna və Belarusun aparıcı elm mərkəzlərinə önəm verməkdədir. Belə ki, 2015-ci ildən qardaş Türkiyənin aparıcı elm mərkəzləri sayılan, dünyanın məhşur universitetlərinin reytinq siyahısında ön sıralarda yer alan ali təhsil müəssisələri – Orta Doğu Texnik, Hacettepe, İstanbul Texnik, Atatürk, Bartin, Ege universitetləri



ilə fundamental nəzəri tədqiqatlar sahəsində əməkdaşlıq edir. Hər bir universitetlə imzalanmış əməkdaşlıq müqavilələrində gənclərin təcrübə keçməyə cəlb edilməsindən tutmuş, müştərək beynəlxalq laboratoriyaların yaradılması, yüksək ixtisaslı kadr hazırlığı və ən əsası beynəlxalq səviyyəli birgə tədqiqatların aparılmasına qədər müxtəlif sahələri əhatə edən akademik təcrübə mübadiləsinin reallaşdırılması praktik olaraq razılaşdırılıb və həyata keçirilməkdədir. Ötən müddətdə ilk dəfə olaraq AKİ-də sintez olunan yeni fizioloji fəal maddələrin antioksidant aktivliyi, enzim-izoenzimlər üzərində inhibitor təsirləri Atatürk və Bartin universitetlərində analiz olunmuş və yüksək təsirə malik olmaları təsdiq edilmişdir. Yekun nəticələrə görə, alınan maddələr bədxassəli şiş (xərçəng), mədə traktı, tənəffüs yollarının iltihabı, Alzheimer (yaddaşitmə, ağıl zəifliyi), qlaukoma, şəkərli diabet, yüksək hipertoniya və sair xəstəlik doğuran patoloji proseslərə yüksək inhibitor təsir göstərir. Hətta onlar standart dərman kimi tətbiq olunan takrin, α-tokoferol və troloksa nisbətən 10 dəfə yüksək təsirə malikdir.

Bu tədqiqatların mühüm nəticələri dünyanın Springer, Elcevier, Wiley, Taylor & Francis kimi nüfuzlu nəşriyyatlarına daxil olan, impakt faktoru yüksək, "Web of Science", "Scopus" kimi tanınmış elm bazalarında arxivləşmiş jurnallarda 50-yə yaxın məqalə şəklində çap olunmuş, onlara dünya alimləri tərəfindən 2000-ə yaxın istinad olunmuşdur.

Türkiyəli həmkarlarla birgə həyata keçirilən müştərək elmi tədqiqatların nəticələrinə həsr olunan beynəlxalq elmi seminarın da təşkil olunmasının əsas məqsədi indiyə qədər aparılmış tədqiqatların əsas nəticələrini bir daha müzakirə etmək və gələcək əməkdaşlıq perspektivlərini müəyyənləşdirmək olmuşdur. Qarabağın zəngin flora örtüyünə malik olduğunu nəzərə alaraq, növbəti mərhələdə oradan toplanılan dərman bitkilərinin ekstraktlarının fizioloji fəallıqlarının öyrənilməsi ilə bağlı birgə tədqiqatların aparılması planlaşdırılır.

AKİ tərəfindən dost, müttəfiq ölkələrlə fundamental tədqiqatlarla yanaşı, tətbiqi işlər sahəsində də önəmli nailiyyətlər əldə edilmişdir. Məlumdur ki, institut strateji məhsul hesab edilən sürtkü yağlarına, yanacaqlara, yağlayıcı-soyuducu mayelərə aşqarların yaradılması və onların əsasında müxtəlif təyinatlı, o cümlədən xüsusi təyinatlı yüksək keyfiyyətli sürtkü və yanacaq kompozisiyaları, yağlayıcı-soyuducu mayelərin işlənməsi və istehsalın təşkili üzrə elmi-tədqiqat işləri aparır. Motor, transmissiya və sənaye yağlarının istehsalını təmin edən bir sıra aşqarlar AMEA AKİ tərəfindən hələ SSRİ dövründə yaradılmış və sənaye istehsalı Azərbaycan (Bakı, Sumqayıt), Rusiya (Ufa, Perm, Yaroslavl, Novo-Kuybışevsk), Ukrayna (Şostka, Xarkov) və Belarus Respublikasında (Novopolotsk) təşkil edilmişdir. O cümlədən, bir sıra xüsusi təyinatlı sürtkü yağları yaradılmış və istehsalı təşkil olunmuşdur. Bu yağlardan biri də Ukraynanın Xarkov şəhərində yerləşən zavodda istehsal edilən və T-80 markalı tankda istifadə edilən xüsusi təyinatlı yüksək gücə malik dizel mühərriki üçün yaradılmış yağ olmuşdur.

Azərbaycan suverenlik əldə etdikdən sonra AKİ əməkdaşları Bakı baza yağları və mövcud aşqarlardan istifadə edərək əvvəlki yağın analoqunu yaratmış, istehsalını institutun nəzdində fəaliyyət göstərən "Aşqar" XTB-də təşkil etmiş və 100 tonlarla Azərbaycan Respublikası Müdafiə Nazirliyinə təqdim etmişdir.

Məlumdur ki, hər bir texnika, ələlxüsus, hərbi texnika ildən-ilə təkmilləşir və yeni nəsil texnika meydana gəlir. Ukrayna Xüsusi Təyinatlı Texnika Zavodu bu istiqamətdə fəaliyyət göstərərək yeni nəsil tanklarda istifadə ediləcək yüksək gücləndirilmiş müasir dizel mühərriki yaratmışdır. AKİ-nin əvvəl yaratdığı motor yağının keyfiyyət göstəriciləri yeni yaradılmış dizel mühərrikinin tələblərinə cavab vermədiyi üçün qeyd olunan dizel mühərrikin tələblərini təmin edən yüksək keyfiyyətli yeni xüsusi təyinatlı motor yağının yaradılması ehtiyacı gündəmə gəldi.

2019-cu ilin iyul ayında Ukrayna zavodu tərəfindən yeni xüsusi təyinatlı yağın yaradılması ilə əlaqədar AKİ-yə müraciət olundu. Həmin müəssisənin nümayəndələri 2019-cu ildə tələb olunan sürtkü yağına aid müzakirələr aparmaq və əməkdaşlıq haqqında niyyət protokolu imzalamaq üçün Azərbaycanda oldular. Ardınca AKİ qısa müddətdə tələb olunan sürtkü yağını yaratdı və laboratoriya sınaqlarının nəticələri bu yağın əvvəlki yağlardan xeyli üstün olduğunu təsdiq etdi.

2020-ci ildə AMEA-nın Təcrübə-Sənaye Zavodunda yeni yağın 600 litr miqdarında nümunəsi hazırlanıb və motor sınaqları üçün Ukraynanın Xarkov şəhərinə yuxarıda qeyd olunan zavoda göndərildi. Həmin yağın sınaqları başqa şirkətlər tərəfindən təklif olunan və hazırda istifadədə olan yağlarla müqayisəli olaraq aparılmışdır. Müqayisəli sınaqların nəticələri zavod tərəfindən tərtib edilmiş 43 səhifədən ibarət rəsmi sənəddə öz əksini tapmışdır. Sənəddə birmənalı qeyd olunmuşdur ki, AKİ-nin yeni yağı xeyli üstün keyfiyyət göstəricilərinə malikdir.

Bu yağın tətbiqi ilə əlaqədar əsaslandırılmış qərarın qəbulu üçün zavod nümayəndələri bu yaxınlarda yenidən instituta səfər edəcəklər.

Qeyd etmək lazımdır ki, bizə dost və qardaş ölkə Pakistanın strateji müəssisələri tərəfindən də analoji müraciətlər göndərilmiş və eyni adlı yağ ilə ölkələrinin təchizi təklif olunmuşdur.

Məlumat üçün onu da qeyd edək ki, son nəsil xüsusi təyinatlı dizel mühərrikləri üçün AKİ tərəfindən motor yağının yaradılması və həmin yağın müsbət sınaq nəticələri haqqında Azərbaycan Respublikası Müdafiə Nazirliyinə məlumat verildikdə nazirlik də qeyd olunan motor yağına maraq göstərmiş və sınaqlar aparılması üçün yağ nümunəsinin əldə edilməsi barədə müraciət etmişdir.

Yuxarıda qeyd olunduğu kimi, fundamental tədqiqatlar sahəsində birgə əməkdaşlıq ölkələrin dünya elminə inteqrasiyasını sürətləndirirsə, tətbiqi sahədə müştərək elmi işlər, eyni zamanda, o ölkələrin iqtisadi inkişafına və müdafiə qüdrətinin yüksəldilməsinə töhfə verir. Strateji məhsullarla təchizat Ukrayna, Pakistan kimi ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir. Hegemon ölkələrin idxal asılılığından azad olmaq ölkələr qarşısında yeni üfüqlər açır. Bu amili nəzərə alaraq AKİ Ukrayna və Pakistanla olduğu kimi, qardaş Türkiyə ilə də tətbiqi sahədə əməkdaşlığın aparılmasını məqsədəuyğun sayır və hazırda bu istiqamətdə TUBİTAK və TUBA xətti ilə müzakirələr aparılmaqdadır.

Hesab edirik ki, Vətən müharibəsinin gətirdiyi reallıqları nəzərə almaqla AMEA-nın digər elmi-tədqiqat müəssisələrinin də beynəlxalq əlaqələrdə Azərbaycana əsl qardaşlıq və dostluq telləri ilə bağlı olan ölkələrin analoji elmi müəssisələrinə önəm verməsi elmi əməkdaşlıq üçün yeni mərhələnin əsasını qoymuş olacaq. Bu isə əlaqələrin daha da yaxınlaşmasını, vahid əməkdaşlıq platformasının yaradılmasını təmin edəcək. Məsələnin maraq doğuran bir tərəfi də odur ki, Vətənimizin çətin günündə – 44 günlük müharibə zamanı bizi tək qoymayan qardaş və dost ölkələrə bu yolla minnətdarlıq etmiş oluruq.

Dostluq və qardaşlığımız daimi olsun!!!

***Vaqif FƏRZƏLİYEV,***
***AMEA Aşqarlar Kimyası İnstitutunun Baş direktoru, akademik***